# İÇİNDƏKİLƏR


- Universitet xəbərləri 3
- *Hamlet İsaxanlı Lent.az-ın "Qadın klubu" layihəsində* (Vüsalə Məmmədova) 16
- *Alik Əlioğlu.*"Narahat olma, Naxçıvandayam" 23
- Valideynlərin kredit arzusu. *(Kaspi.az)* 24
- Mədəniyyət 26
- *Салеха Алиева.* «Наилучшее служение богу - честность и трудолюбие» 30
- Sosial 33
- Elm 34
- *Asif Nəbiyev.* Boloniya prosesi və Boloniya deklarasiyası 36
- Dünya 40
- *Ramilə Qurbanlı.* Lui de Funes: sədaqətli, qısqanc 42
- Reporters Without Borders' 2013 World Press Freedom Index 44
- *Вадим Шаталин, Феликс Штайнер.* Как Гитлер пришел к власти 48
- *Mo Yan.* Şərab ölkəsi 52
- İslam dünyada 60
- Təbabət 62
- Mozaika 65
- İdman 68



Xəzər Xəbər

1995-ci ilin yanvarından çıxır

Təsisçi:
XƏZƏR UNİVERSİTƏSİ

Baş redaktor:
Hamlet İSAXANLI

Baş redaktor müavini:
Əlirza BALAYEV

Redaksiya heyəti:
Camal MUSTAFAYEV
Cəmil HƏSƏNLİ
Nizami CƏFƏROV
Knyaz ASLAN
Əfqan ABDULLAYEV

Rəssam:
Mir Rafiq ƏBDÜLRƏHİMOV

Kompüter tərtibatçısı:
Nigar AYDƏMİROVA

Foto:
MEDİA MƏRKƏZİ

*Ünvanımız:*
*Bakı, Məhsəti küçəsi 11,*
*("Neftçilər" metrosunun yanı)*
*Faks: 498-93-79*
*Telefon: 421-79-16*
*421-10-93*
*E-mail: xazarxabar@khazar.org*
*Şəhadətnamə: 376*
*İndeks: 67178*
*Sifariş: 190*
*Tiraj: 3000*

## BOLONİYA PROSESİ HAQQINDA SEMİNARDA

Fevralın 21-22-də "Excelsior" otelində Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Bakı Dövlət Universitetinin təşkilatçılığı ilə Boloniya prosesi çərçivəsində fəlsəfə doktoru proqramlarının müzakirəsinə həsr olunmuş seminar keçirildi. Seminarda təhsil naziri Misir Mərdanovun, AMEA və AAK əməkdaşlarının, avropalı mütəxəssislərin çıxışları dinlənildi. Seminarda Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı "PhD dərəcəsi üzrə proqram: təhsil, araşdırma, təşkilati problemlər" mövzusunda çıxış etdi.

## TƏLƏBƏLƏRİMİZ "MAHİR NİŞANÇI" GÜLLƏ ATICILIĞI TURNİRİNDƏ

Xocalı soyqırımının 21-ci ildönümü ilə əlaqədar Gənclər və İdman Nazirliyi Tələbə Gənclər Təşkilatları İttifaqı ilə birlikdə fevralın 25-də tələbələr arasında "Mahir nişançı" güllə atıcılığı üzrə VII Respublika turniri keçirmişdir. Turnirin keçirilməsində əsas məqsəd XX əsrdə Azərbaycan xalqına qarşı erməni millətçiləri tərəfindən törədilmiş soyqırımı qurbanlarının xatirəsini yad etmək, ölkəmizin ərazi bütövlüyünün təmin olunması istiqamətində gəncləri hərbi vətənpərvərlik ruhunda tərbiyə etmək, onlarda hərbi vərdişlərin yaranmasını təmin etmək, gənclərin ordu sıralarında hərbi xidmət keçmə hazırlığının yüksəlməsinə kömək göstərilməsi, güllə atıcılığı üzrə idman növünün geniş təbliğ edilməsidir.Yarışda respublikanın 40 ali və orta ixtisas təhsili müəssisəsinin 160 tələbəsi iştirak etmişdir. Tələbə məclisinin təşkilatçılığı ilə bir qrup tələbəmiz də bu turnirdə iştirak etmiş və universitetimiz ali təhsil müəssisələri arasında 5-ci yeri tutmuşdur..

## HAMLET İSAXANLI LENT.AZ-IN "QADIN KLUBU" LAYİHƏSİNDƏ

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı martın 13-də lent.az-ın "Qadın Klubu" layihəsinin qonağı oldu. Söhbəti bu linkdə oxumaq olar:
http://news.lent.az/news/118996 (*Söhbət jurnalın 16-18-ci səhifələrində dərc olunur*).

## XƏZƏR UNİVERSİTETİ KARYERA MƏRKƏZİNİN SOSİAL ŞƏBƏKƏ ÜNVANLARI AÇILMIŞDIR

Xəzər Universiteti Karyera mərkəzinin sosial şəbəkə ünvanları açılmışdır. Ünvanları təqdim edirik:
http://www.linkedin.com/pub/khazar-university-career-center/65/7a8/b15/
https://www.facebook.com/KhazarUniversityCareerCenter?notif_t=page_new_likes
https://twitter.com/Khazar_Career
Skype: khazar.career.center

Khazar review

It has been publishing since January, 1995

Founder:
KHAZAR UNIVERSITY

Editor-in-chief:
Hamlet ISAXANLI

Associate editor:
Alirza BALAYEV

Editorial member:
Jamal MUSTAFAYEV
Jamil HASANLI
Nizami JAFAROV
Knyaz ASLAN
Afgan ABDULLAYEV

Design by:
Mir Rafig ABDULRAHIMOV

Computer graphics:
Nigar AYDEMİROVA

Photo:
MEDIA CENTRE

*Address:*
*11 Mahsati str., Baku,*
*(near the "Neftchilar" metro)*
*Fax: 498-93-79*
*Phone: 421-79-16*
*421-10-93*
*E-mail: redaksiya@khazar-view.org*

*Certificate: 376*
*Index: 67178*
*Order: 190*
*Copies: 3000*

## "XƏZƏR"Ə TƏŞƏKKÜR MƏKTUBU




*Xəbər verdiyimiz kimi ( www.khazar.org saytı və "Xəzər Xəbər"jurnalı, № 315, fevral 2013), Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının (ATGTİ) Gənclər və İdman Nazirliyinin dəstəyi ilə Xaçmaz rayonunda fevralın 11-17-də keçirdiyi "VI Liderlik Məktəbi - Qış Parlamenti" layihəsində ali məktəblərin tələbələri ilə yanaşı, universitetimizin Mühəndislik və tətbiqi elmlər fakültəsinin 2-ci kurs tələbəsi Vuqar Quluzadə, Humanitar və sosial elmlər fakültəsinin 2-ci kurs tələbəsi Ülvi Allahverdi də iştirak etmək hüququ qazanmışdılar.*

*Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının sədri Şahin İsmayılov layihənin nəticələrinə görə fevralın 26-da universitetimizin rəhbərliyinə təşəkkür məktubu göndərmişdir:*

**Xəzər Universitetinin prorektoru professor Rafiq Əhmədova**

Hörmətli Rafiq müəllim! Məlumat üçün qeyd edirik ki, Azərbaycan Tələbə Gənlər Təşkilatları İttifaqı (ATGTİ) cari-2013-cü ildə də öz fəaliyyətini davam etdirir. İttifaq bu il də tələbə-gənclərin maarifləndirilməsi, ümumi inkişafına xidmət edən bir-birindən maraqlı tədbir və layihələrin icrasını nəzərdə tutur. Belə layihələrdən biri də 11-17 fevral tarixlərində Xaçmaz rayonunda keçirdiyimiz "VI Liderlik məktəbi-Qış Parlamenti"dir.

Layihədə Azərbaycanın paytaxt və regionlarında fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələrinin I və II kurs tələbələri iştirak etmişdir. Layihə çərçivəsində tələbələr yaradılmış müxtəlif komissiyalar tərkibində qanun layihə təklifləri ilə çıxış etmiş, parlament modelində təşkil olunmuş plenarlarda həmin layihələrin təqdim olunması, müzakirəsi və qiymətləndirilməsi həyata keçirilmişdir.

Diqqətinizə çatdırırıq ki, rəhbərlik etdiyiniz ali təhsil müəssisəsinin Mühəndislik və tətbiqi elmlər fakültəsinin II kurs tələbəsi Quluzadə Vuqar İbrahim oğlu təşkilat komitəsi tərəfindən "VI Liderlik Məktəbi-Qış parlamenti" layihəsinə seçilmişdir. Tələbəniz Vuqar Quluzadənin qanun layihələrinin hazırlanmasında fəal iştirakına görə Sizə və tələbənizə dərin təşəkkürümüzü bildiririk.

***Hörmətlə,***
***Şahin İsmayılov,***
***ATGTİ-nin sədri***

## ƏMƏKDAŞIMIZ MİNSKDƏ KEÇİRİLƏN İDARƏETMƏ İCLASINDA



Xəzər Universiteti Mühəndislik və tətbiqi elmlər fakültəsinin dekanı Siyavuş Azakov fevralın 28-dən martın 1-dək Minskdə Belarus Universitetində keçirilən TEMPUS Proqramının "Enerji səmərəliliyi tədrisinin inkişafı və təlim şəbəkəsinin qurulması" layihəsinin ikinci idarəetmə iclasında iştirak edib.

Martın 2-də o, Belarus Dövlət Universitetinin Fizika fakültəsində olmuş və Enerji fizikası departamentinin müdiri, professor A.K. Fedotovla departamentin fəaliyyəti, fənlərin tədrisi və məzmunu, tələbələrin elmi-tədqiqat işləri barədə söhbət etmişdir. Görüşdə əməkdaşlıq ideyaları da müzakirə olunub.

# UNİVERSİTET XƏBƏRLƏRİ

## TƏLƏBƏMİZ ABŞ-DA



*Xəbər verdiyimiz kimi, Xəzər Universitetinin tələbəsi Lamiyə Korçiyeva IREX tərəfindən təşkil olunan və ABŞ Dövlət Departamentinin sponsorluğu ilə həyata keçirilən UGRAD təqaüd proqramı üçün seçilmiş 5 finalçıdan biridir. O, 2013-cü ilin may ayına qədər Kanzas ştatının Lindsborq şəhərində yerləşən Bethany kollecində Biznesin təşkili ixtisası üzrə təhsil alacaq.*

*Lamiyə kollecin ictimai həyatında fəal iştirak edərək, Azərbaycanın həm kollec daxilində, həm də Lindsborq şəhərində tanıdılması üçün müəyyən tədbirlər keçirir. O, eyni zamanda, gördüyü işlər barədə doğma universitetini də məlumatlandırır. Onun ilk məktubu yanvar ayında universitetin vebsaytında yerləşdirilmiş və "Xəzər Xəbər" jurnalının 314-cü (yanvar, 2013) nömrəsində çap olunmuşdur. Lamiyədən aldığımız yeni xəbərləri ("Azərbaycana həsr olunmuş filmin Lindsborqda nümayişi"; "My Activities in the USA") oxuculara təqdim edirik*

## AZƏRBAYCANA HƏSR OLUNMUŞ FİLMİN LİNDSBORQDA NÜMAYİŞİ

2012-ci ilin avqust ayında ilk dəfə Bethany kollecə gələndə, universitetdə fəaliyyət göstərən tələbə təşkilatlarının çoxluğu, sözün əsl mənasında, məni heyrətləndirmişdi. Ancaq kampusda beynəlxalq tələbələri təmsil edəcək bir təşkilatın nə üçün olmadığı məni çox maraqlandırırdı. Demə, var imiş: Multikultural Tələbə Birliyi. Lakin təşkilat artıq fəaliyyət göstərmirdi. Hər halda, mən bu barədə çox həvəsli idim və təşkilatın məsləhətçisi ilə görüşdüm. Görüşümüzdən sonra anladım ki, mən bir təşəbbüs göstərib, bu təşkilatın fəaliyyətini yenidən dirçəldə bilərəm. Qısası, görüşdən sonra biz ilk tədbiri keçirməyi planlaşdırdıq. Gərgin hazırlıqdan sonra fevralın 19-da Messiah Lutheran kilsəsində biz Azərbaycana həsr olunmuş ilk Multikultural Film gecəsini təşkil etdik.

Məqsəd Azərbaycanı yerli icmaya tanıtmaq, tələbələri Multikultural Tələbə Birliyinin üzvü olmağa, dünya mədəniyyətini, tolerantlığı öyrənməyə və liderlik bacarıqlarına yiyələnməyə həvəsləndirmək idi.

Həmin axşam Multikultural Tələbə Birliyi üçün çox böyük bir başlanğıc və motivasiya oldu.

Qonaqlar çox həyəcanlı idilər. Onlar Azərbaycan barədə filmə baxıb, onun mədəniyyəti, tarixi və adət-ənənələri ilə tanış oldular. Azərbaycan mətbəxinə məxsus dəmlənmiş çaydan içdilər.

Düzünü desəm, həmin axşam özümü evdəki kimi hiss etdim. Bu tədbirin müsbət nəticə verəcəyinə ümid edirdik və elə də oldu.

Hazırda Multikultural Tələbə Birliyinin yaz semestri üçün liderlərdən ibarət komandası, həvəsli üzvləri və görüləcək çoxlu işləri var. Aprel ayında biz Mədəniyyət Festivalı keçirməyi planlaşdırırıq.

Bu, müxtəlif ölkələrdən olan insanlara eyni



vaxtda öz mədəniyyətlərini nümayiş etdirmək imkanı verən "Qlobal Kənd" adlı tədbir olacaqdır. Tədbirdə həm xaricilər, həm də yerli sakinlər öz vətənlərini, mədəniyyətlərini və mətbəxlərini nümayiş etdirmək imkanı əldə edəcəklər.

Bütün bunlardan sonra mən bir daha anladım ki, insan bir şeyi etmək istəyirsə, onu həqiqətən istəməli və bu istəyi dostlarına, komandasına və başqalarına ötürməyi bacarmalıdır. Bizim hər birimiz

cəmiyyətə müsbət dəyişiklik gətirmək istəyirik. Ümid edirik ki, Bethany kollecin Multikultural Tələbə Birliyi öz fəaliyyətini davam etdirəcəkdir.

***Lamiyə Korçiyeva,***
***Xəzər Universitetinin tələbəsi***



## MY ACTIVITIES IN THE USA

In January, 2013, the interterm semester started. After a very successful presentation of Azerbaijan to the community of Messiah Lutheran church in Lindsborg, KS, I got a very warm feeling inside my heart. I was excited, proud and happy. After final exams in the end of January, my advisor Mrs. Anderson at Bethany College sent me a brochure about the Girl Scouts Friendship Fair on February 24 and asked if I would like to participate and present my country there. I agreed. Time flew fast.

End of February:

My friend Michallete from the Bahamas, our advisor Charlotte, and I headed to Salina, KS to present our countries.

The World Friendship Fair is an annual event. It was organized by Girl Scouts of Kansas and was also held in different states on the same date.

Their national organization, GSUSA, encourages participants to think globally and to act locally. In this spirit, the World Thinking Day (a Girl Scout Holiday & tradition) was planned.

**The theme for 2013 is girls worldwide saying, "together we can save lives,"** with a focus on children's health**.** They invited each troop and service unit to participate in this important region-wide event. The Girl Scouts believe that learning about and understanding our world neighbors can be a powerful tool in helping girls channel their feelings about other cultures and beliefs. In turn, the resulting fair will positively impact our troops, service units, communities, and council.

"World Thinking Day not only gives girls a chance to celebrate international friendships, but is also a reminder that Girl Scouts of the USA is part of a global community—one of nearly 150 countries with Girl Guides and Girl Scouts." - Blanca Banda (Youth Leadership Development)

On the day of the fair when we arrived at church, we started setting up our tables.

At 10.00 AM, the International Flag ceremony began. I was so proud to see our flag among other countries. After it was over, the participants went back to their tables and started the planned activities.

Girl Scouts were approaching my table in groups, and after getting to know Azerbaijan better, including its culture, geography, historical facts and places, they started asking questions. They got especially excited about the fact that we have a fire coming out of the ground, that we jump over the fire at Novruz Bayram, and that we have a similar tradition as they do for Halloween "Trick or treating;" we do our "Papaq atmaq."

They were impressed by our national dress, and when I asked them if they want to learn Azerbaijani dance, they said "Yes" right away.

They are such talented kids. I was energized by their curiosity and ability to listen and learn. After they learned the basics of Azerbaijani dance, I promised them that by the end we would dance together what we had learned that day.

They were so happy and excited about it.

During all that day, I felt like a real cultural ambassador. I felt proud, grateful, and happy for the opportunity to share and learn and meet new people from different countries at the same time.

***Lamiya Korchiyeva,***
***Khazar University Student***